DOI: doi.org/10.61226/12.2.2023/20252.3
UOT: 005
Fidan HÜMBƏTOVA
Bakı Biznes Universiteti, doktorant
humbetovafidan28@gmail.com
https://orcid.org/0009-0009-4342-3568

ALİ TƏHSİL MÜƏSSİSƏLƏRİNİN İDARƏEDİLMƏSİNDƏ KARYERA MƏRKƏZLƏRİNİN ROLU VƏ PRAKTİKİ ƏHƏMİYYƏTİ

Xülasə:Günümüzün aktual məsəsləsi olan işsizliyin səviyyəsinin aşağı salınması və intellektual kapitalın əmək bazarında işlə təmin edilərək yetişdirilməsidir. Bu məqsədlə fəaliyyət göstərən həm fərdi karyera mələhət mərkəzləri həmdə universitetlərin daxilində bir struktur olaraq fəaliyyət göstərən karyera mərkəzləri tələbələrin və məzunların peşəkar inkişafına dəstək vermək üçün daim çalışır və bu sahədəki tendensiyaları izləyirlər. Bu mərkəzlər əmək bazarı ilə bağlı informasiya verməklə yanaşı həmçinin onların karyera planlamasını hazırlayaraq hər bir məzun üçün şəxsi vizyon yaradır. Məzun və tələbələrə həm dövlət həm də özəl təşkilatlar tərəfindən göstərilən dəstəy, savadlı gənclərin məşğul əhali siyahına daxil olması üçün keçirtdikləri bir sıra seminarlar və təlimlər bunun əsas göstəricisidir. Universitetlərin tərkibində yerləşən karyera mərkəzlərinin funksiyası məzun və tələbələr üçün əmək yarmarkaları, təcrübələr, təlimlər həmçinin fərdi konsultasiyalar təşkil etməkdir. Eyni zamanda karyera mərkəzləri universitetlərlə sənaye müəssisələri arasında daim iş birliyi çərçivəsindədir.

Məqalədə karyera mərkəzlərinin fəaliyyət istiqamətləri, mövcud çətinlikləri və inkişaf perspektivlərini nəzərdən keçirir. Tədqiqat üçün bir sıra xarici və yerli universitetlərin karyera mərkəzlərinin fəaliyyəti araşdırılmış və yerli universitetlərin karyera mərkəzlərinin fəaliyyəti ilə müqayisə edilmişdir. Bununla yanaşı tədqiqatda karyera mərkəzlərinin fəaliyyəti ilə bağlı SWOT təhlilidə aparılaraq karyera mərkəzlərinin güclü, zəif, imkan və təhdidləri araşdırılmışdır. Əldə edilmiş nəticələrdən isə universitet daxilində yerləşən karyera mərkəzlərin inkişaf üçün bir sıra təklif və tövsiyyələr irəli sürülmüşdür.

Açar sözlər: Karyera mərkəzləri, ali təhsil müəssisələri, karyera planlaması, əmək bazarı.

Fidan HUMBATOVA

THE ROLE AND PRACTİCAL İMPORTANCE OF CAREER CENTERS İN THE MANAGEMENT OF HİGHER EDUCATİONAL İNSTİTUTİONS

Abstract: One of the pressing issues of our time is reducing the level of unemployment and fostering the development of intellectual capital by ensuring its employment in the labor market. To this end, both individual career counseling centers and career centers functioning as structural units within universities work continuously to support the professional development of students and graduates, while also monitoring current trends in this field. These centers not only provide information about the labor market but also assist in career planning by creating a personal vision for each graduate. The organization of various seminars and trainings, with support from both public and private institutions, demonstrates efforts to include well-educated youth in the employed population. University-based career centers function to organize job fairs, internships, training sessions, and personal consultations for students and graduates. At the same time, these centers maintain ongoing collaboration between universities and industrial enterprises within a framework of partnership.

This article examines the main areas of activity of career centers, existing challenges, and development prospects. The study explores the operations of career centers at several foreign and local universities and includes a comparative analysis of their practices. Additionally, a SWOT analysis of the career centers' activities was conducted to identify their strengths, weaknesses,

opportunities, and threats. Based on the results obtained, several proposals and recommendations were put forward to support the development of university-based career centers.

Keywords: Career centers, higher education institutions, career planning, labor market.

Фидан ГУМБАТОВА

РОЛЬ И ПРАКТИЧЕСКОЕ ЗНАЧЕНИЕ ЦЕНТРОВ КАРЬЕРЫ В УПРАВЛЕНИИ ВЫСШИМИ УЧЕБНЫМИ ЗАВЕДЕНИЯМИ

Австракт: Актуальной проблемой современности является снижение уровня безработицы и развитие интеллектуального капитала за счёт его трудоустройства на рынке труда. С этой целью активно функционируют как индивидуальные центры карьерного консультирования, так и центры карьеры, действующие как структурные подразделения внутри университетов, которые постоянно работают над профессиональным развитием студентов и выпускников, а также следят за текущими тенденциями в этой области. Эти центры не только предоставляют информацию о рынке труда, но и помогают в карьерном планировании, формируя личное видение будущего для каждого выпускника. Семинары и тренинги, проводимые при поддержке как государственных, так и частных организаций, являются основным показателем включения образованной молодежи в число занятого населения.Функцией центров карьеры при университетах является организация ярмарок вакансий, стажировок, обучающих мероприятий, а также индивидуальных консультаций для студентов и выпускников. В то же время центры карьеры находятся в постоянном сотрудничестве с промышленными предприятиями в рамках партнёрства с университетами.

В статье рассматриваются направления деятельности центров карьеры, существующие проблемы и перспективы их развития. В рамках исследования были изучены центры карьеры ряда зарубежных и местных университетов, а также проведено их сравнительное сопоставление. Кроме того, в исследовании был проведён SWOT-анализ деятельности центров карьеры, в результате чего были выявлены их сильные и слабые стороны, возможности и угрозы. На основе полученных результатов были предложены конкретные рекомендации и предложения по развитию центров карьеры, функционирующих в структуре университетов.

Ключевые слова: центры карьеры, высшие учебные заведения, планирование карьеры, рынок труда.

Giriş. *Karyera sözü latınca "araba" mənasından gələn carrus sözündən törəyib. Bu sözü mənaca "hərəkət" və ya "daşıma" olaraq başa düşə bilərik. Ümumillikdə karyera fərdin peşəkar həyatı boyunca gördüyü fəaliyyətlərin cəmidir* [1]. IX əsrdən formalaşan karyera anlayışı müxtəlif təkamül dövrləri keçsədə hər biri dövrün peşə öhdəliyi, peşə etikası şəraitinə uyğunlaşmışdır. 21-ci əsrdən əmək bazarının intensiv dəyişkənliyi və innovativ xarakteri karyera mərkəzlərinin fəaliyyətindən də yan keçmir. Bu səbəbdən bir sıra karera planlamaları, karyera strategiyaları həyata keçirilir.

Ali təhsilli kadrların əmək bazarında məşğulluq səviyyəsi dövlətlərin həmçinin rəqabətqabiliyyətli universitetlərin hədəf mərkəzlərindədir. İnnovativ potenisalın inkişafı məsələsi məzunların məşğulluq strategiyasını qurması və onların bu sahədəki gözləntilərinin qarşılanması dövlətlərin inistutsional islahatları ilə yanaşı karyera mərkəzlərinində öhdəliyinə düşən məslələrdəndir. Hazırda təhsil alan gənclərin ümumavropa əmək bazarının tələbləri səviyyəsinə yüksəldilməsi ali təhsil müəssisələrinin qarşısına prioritet məsələ kimi qoyulmuşdur.

Universitetlərin tərkibində yaranan karyera mərkəzlərinin əsas hədəfi tələbələrin akademik fəaliyyətini başa vurduqdan sonra öz gələcək peşə fəaliyyətini qurmağa, peşəkar kadr kimi inkişaf etməyinə dəstək götərməsidir. Karyera mərkəzləri tələbələrin təhsil aldığı müddət deyil, həmçinin məzun olduqdan sonrakı dövrdə onlara bir sıra məsələlərdə xidmət göstərməyi öz qarşısına hədəf

kimi qoymuşdur. Məhz bu səbəbdən karyera mərkəzləri gənclərin peşə bacarıqlarının inkişafı və bazarın tələblərinə uyğun kadrların hazırlanmasına köməklik göstərir.

Müasir cəmiyyətdə ali təhsil əmək bazarında güclü və davamlı mövqe tutmaq üçün əsasdır. Ali təhsil cəmiyyətdə yalnız istehlak səviyyəsi deyil, həmçinin sosial dayanıqlığı təmin edən faktordur. Rəqabətqabiliyyətlilik, elmi-texniki yeniliklər və bir sıra sahələrin inişafı məhz bu intellektual kapitalların əlindədir. Lakin buna baxmayaq intellektual kapitalın əmək bazarına inteqrasiyası şəraitində məşğulluq probleminin həlli ilə üzləşirlər. Bu problemlər kadrların təkcə peşə bacarıqlarının yetərsizliyi ilə deyil həmçinin müəssisələrin davamlı dəyişən tələbatı ilədə bağlıdır. Bu səbəbdən əmək bazarının tədqiqi həmçinin, tendensiyalara uyğun islahatların aparılması vacibdir.


Karyera mərkəzləri özünəməxsus xüsusiyyətlərə malik olan təşkilati strukturdur. Fəaliyyət istiqamətinin genişliyi və əsasən tələbə və təşkilatlarla sıx inteqrasiyası təhsil müəsssisələrinin digər təşkilati strukturlarından fərqləndirir. Karyera mərkəzlərinin əsas fəaliyyət istiqaməti aşağıdakılardır:

- CV-lərin hazırlanması;
- İstehsalat və pedaqoji təcrübələrin təşkili;
- Hazırlıq kursları;
- Əmək yarmarkası;
- Karyera günləri;
- Fərdi karyera planaması;
- Könüllü karyera proqramları;
- Tələbələr üçün məsləhət xidməti;
- İşəgötürənlərlə əlaqələrin qurulması;
- Məzunların izlənməsi və statistik təhlillər;
- Peşəkar inkişaf üzrə seminar və təlimlər və s.

Qeyd edilən istiqamətlər üzrə fəaliyyətlərin təşkilinin təmin edilməsi və davamlı inkişafı karyera mərkəzlərin hədəflərindən sadəcə bir neçəsidir. Bu mərkəzlər yalnız tələbələrlə deyil həmçinin müəssisələrlə sıx əməkdaşlıq edir, mütamadi görüşlər təşkil edərək əmək bazarının tələblərini qiymətləndirir. Sənaye cəhətdən inkişaf etmiş ölkələr ali təhsil müəssisələrinə onlar üçün perspektivli olan kadrların hazırlanması üçün bir sıra təkliflər verir ki, bunun əsasında da həmin ali təhsil müəssisələri peşəkar kadrlar yetişdirir.

Karyera mərkəzlərinin əsas fəaliyyət istiqamətlərindən biri olan karyera planlaması karyera məsləhətçilərinin göstərdiyi əsas dəstəklərdəndir. Karyera planlaması bir-biri ilə sıx bağlı olan addımlardan ibarətdir. Aşağıdakı cədvəldə bu planlamanın addımlarını aydın müşahidə edə bilərik.

Cədvəl 1



Mənbə: Müəllif tərəfindən tərtib edilib

Karyera planlamasının hər bir mərhələsi karyera quran məzunun əsas istiqamətlənmiş fəaliyyətidir. Karyera qurmaq istəyən məzun ilk öncə öz potensialını müəyyən etməlidir bu onun əmək bazarında öz peşə bacarıqlarına uyğun fəaliyyət sahəsini tapmağa kömək edir. Peşə sərişdələrini müəyyən etmiş şəxs öz bacarığına uyğun fəaliyyət göstərən mərkəzləri müəyyən edir.

İxtisaslı kadr karyera məsləhətçilərinin verdiyi tövsiyyələr əsasında karyera planını tərtib edərək gələcək əmək fəaliyyətini qurur.

Əvvəllər fərdi formada fəaliyyət göstərən karyera mərkəzləri olmasına baxmayaraq artıq həm xarici həm də yerli universitetlərin daxilində bu sahədə fəaliyyət göstərən mərkəzləri görmək mümkündür. Araşdırmamızda bir sıra qabaqcıl xarici təhsil müəssiələrinin təcrübəsinə nəzər yetirdikdə onların hər birinin özünəməxsus fəaliyyət istiqamətini müəyyən edə bilərik.

Berlin Humboldt Universitetinin Karyera Mərkəzi tələbələri məzun olduqdan sonra mürəkkəb peşəkar dünyaya hazırlayan gələcək bacarıqlara və əsas səriştələrə diqqət yetirən fəaliyyət mərkəzidir. Humboldt Universitetinin karyera mərkəzinin fəaliyyət istiqaməti:

- *Karyera məsləhətləri;*
- *Ərizə sənədlərinin yoxlanılması;*
- *Seminarlar və peşəkar həyata daxil olarkən fərdi məşq vasitəsilə dəstək;*
- *Stellenticket iş portalı;*
- *Beynəlxalq tələbələr üçün təkliflər;*
- *Aİ Campus;*
- *Kadrlar bölməsi ali təhsil və iş dünyası sahələrində şirkət və qurumlarla əməkdaşlıq edir* [7].

Qərb sahilinin ən böyük ictimai tədqiqat universiteti olan Oregon Universitetinin məzunları mükəmməl karyera nəticələrinə malikdir. Bu isə Universitetin tədris və təhsilinin keyfiyyət göstəricisidr. Oregon Universitetinin karyera mərkəzinin fəaliyyət istiqaməti:

- *Mümkün ixtisaslar və karyeralar haqqında fikir əldə etmək;*
- *Natamam və tam ştatlı iş, təcrübə və şəbəkələşmə tədbirləri daxil olmaqla, karyera imkanlarının məlumat bazasına daxil olmaq üçün Handshake hesabınızı aktivləşdirilməsi;*
- *CV-nizi və LinkedIn profilinizi təkmilləşdirin və onları istədiyiniz sahəyə uyğunlaşdırın.*
- *Qapaq məktubları yazmaq bacarıqlarınızı gücləndirilməsi;*
- *Müsahibə bacarıqlarınızı inkişaf etdirilməsi. Onlayn Böyük müsahibə platformasından istifadə edilməsi və ya Karyera Mərkəzində təcrübə müsahibəsinin keçirilməsi;*
- *İş axtarışı planı hazırlamaq üçün karyeraya hazırlıq üzrə məşqçi ilə görüşlərin təşkili;*
- *Potensial işəgötürənlər haqqında öyrənmək üçün karyera sərgilərində və digər karyera tədbirlərində iştirakın təmin edilməsi* [6].

ABŞ-ın Miçiqan ştatında yerləşən tədqiqat universiteti olan Qərbi Miçiqan Universitetinində karyera mərkəzlərinin fəaliyyətinin təhlili nəticəsində aşağıdakı nəticələr əldə edilmişdir.

- *Karyera məsləhətləri (virtual və əyani);*
- *Handshake (iş axtarış platforması;*
- *Tərcümeyi-halın (CV-nin) yoxlanılması (virtual və əyani);*
- *Özünüqiymətləndirmə testləri;*
- *Karyera inkişaf resursları (ixtisas seçimləri, magistrantlar, əlilliyi olan tələbələr üçün resurslar və s.);*
- *Şəbəkələşmə (networking);*
- *Təcrübə proqramlarının axtarışı;*
- *Müsahibəyə hazırlıq yardımı (Big Interview platforması);*
- *Karyera idarəetməsi (sosial media, LinkedIn);*
- *Tədbirlər və iş yarmarkaları;*
- *Məzunlardan sonrakı fəaliyyət hesabatı;*
- *Kampus daxilində iş imkanları* [9].

Almaniyanın Köln Universitetinində həmçinin özünəməxsus karyera mərkəzlərinin fəaliyyət istiqaməti vardır. Əsasən Köln Universiteti "Stellenwerk" iş portalı vasitəsilə tələbələr iş taparaq staj əldə edirlər. Bu portalda tələbələr özlərinə uyğun işləri tapmaqda köməklik edir. Portalda əmək haqqı məlumatı, iş yeri, məşğulluq dairəsi (part time, ful time) və s. kimi məsələlər öz əksini tapır.

Azərbaycanın özəl universitetlərindən olan və gənclərə dəstəyi ilə bilinən Bakı Biznes Universitetinində karyera mərkəzinin özünəməxsus fəaliyyət istiqaməti var. Mərkəz əsasən aşağıdakı məsələr üzrə fəaliyyət göstərir. Mərkəzin adı tam olaraq "Karyera və məzunlarla iş mərkəzidir". Ali təhsilin bakalvır səviyyəsində istehsal təcrübələri təşkil etsədə, magistr səviyyəsində elmi-pedaqoji və elmi tədqiqat təcrübələrinin təşkilini həyata keçirir.

Tələbələri ixtisasın profilindən və xüsusiyyətindən asılı olaraq, yeni texnologiyalarla, iş üsulları ilə, elmi-tədqiqatlarla və digər məsələlərlə tanış etmək;

1. Tələbə və məzunlara onların karyera inkişafında və işlə təmin olunmasında yardım göstərmək;

2. Xarici və yerli universitetlərin, şirkət və müəssisələrin bu sahədə olan təcrübəsindən səmərəli istifadə etmək;

3. Karyera tədbirlərinin həyata keçirilməsi məqsədi ilə dövlət və özəl sektordan mütəxəssislər cəlb etmək;

4. Məzunların hazırlıq səviyyəsinin əmək bazarının tələblərinə uyğunluğunu müəyyənləşdirmək məqsədi ilə kompleks tədbirləri həyata keçirmək;

5. Universitetin müsbət imicinin qorunub saxlanılması, reytinqinin artırılması və mütamadi olaraq ictimaiyyəti məlumatlandırmaq;

6. Əmək bazarındakı vəziyyət və meyllərə, iş yeri axtaranlar üçün irəli sürülən tələblərə dair informasiyanın toplanılması, ümumiləşdirilməsi, təhlil etmək;

7. Məzunların təyinatının nəticələri, işə düzəlməsi ilə bağlı bütün tədbirlərə dair informasiyanın statistik emal və təhlil etmək;

8. Universitet məzunlarının karyera uğurları haqqında məlumatlar toplamaq və təbliğ etmək, onların fəaliyyəti haqqında məlumatları toplamaq;

9. Uğurlu karyera yolu keçmiş məzunlarla görüşlərin keçirilməsi;

10. Universitet rəhbərliyinin sənaye müəssisələrinin mülkiyyətçiləri və rəhbərləri, işəgötürənlər birliyi ilə qarşılıqlı əməkdaşlıq məsələlərinin həlli üçün görüşləri təşkil etmək;

11. Təşkilatlar, müəssisələrlə əməkdaşlıq haqqında kompleks uzun müddətli müqavilələrin bağlanması;

12. Sənaye müəssisələrin Universitetdə laboratoriyalarının yaradılmasını təmin etmək [8]. Qeyd edilənlərdən aydındır ki, müxtəlif ölkələrin universitetlərinin tərkibində karyera mərkəzləri fəaliyyət göstərsədə müəyən mənada eyni istiqamətdə fəaliyyət göstərirlər. Araşdırmalar nəticəsində karyera mərkəzlərinin SWOT təhlilini aparaq karyera mərkəzləri üçün yeni yanaşma və strategiyalar tərtib edilə bilər.

Cədvəl 2


GÜCLÜ TƏRƏFLƏR (Strengths)	**ZƏİF TƏRƏFLƏR (Weaknesses)**
• Tələbə və məzunlarla daim maraqlamaq və geniş aspektdə xidmətlərin təklifi • Universitetin təşkilati strukturnda yerləşməsi • Sənaye müəssiələri və dövlət qurumları ilə davamlı əməkdaşlıq etməsi • İşəgötürənlər ilə daim əlaqələrin qurulması və əmək bazarı arasında körpü rolunda çıxış etməsi • Karyera günlərinin və əmək yarmarkalarının təşkili ilə tələbə və məzunların iş dünyasına adaptasiyasının təmin edilməsi • Peşəkar inkişaf üzrə təlim və seminarların peşəkar təlimçilər tərəfindən təşkili	• Karyera mərkəzərinin məhdud resurs və maliyyə bazasının olması • İşçi heyətinin peşəkarlıq səviyyəsinin qeyri-kafi olması • Əmək bazarının real tələblərinə dair məlumatların yetərsiz olması (analiz və monitorinq imkanlarının məhdudluğu) • Onlayn platformanın və ya mərkəzin fəaliyyəti ilə bağlı sistemin olmaması • Effektiv performans dəyərləndirməsinin olmaması

• Məzunlarla daim əlaqələrin qurulması və onların karyerasındakı uğurlarının tələblərlə paylaşması	
İMKANLAR (Opportunities)	**TƏHDİDLƏR (Threats)**
• Əmək bazarının sürətlə inkişafı və yeni ixtisasların yaradılması • Dövlətin institsional islahatların aparılması və təhsil dəstəyi • Beynəlxalq əməkdaşlıq və təcrübələr • Startap və innovasiya yönümlü fəaliyyət-lərin inkişafı həmçinin bu sahədəki müəssisə və təşkilatlarla əməkdaşlıq • Networking-in qurulması (məzunlarla məlumat bazasının genişləndirilməsi)	• Əmək bazarının qeyri sabitliyi • İşəgötürən müəssisələrin universitetlərlə əməkdaşlıqda passiv olması (əməkdaşlıq modelinin zəif olması hətda olmaması) • Tələbələrin öz karyera yollarını planlamaqda məqsədsiz və motivasiyasız olması • İnformasiya texnologiyalara uyğunlaşmaqda ləngimələr

Mənbə: Müəllif tərəfindən tərtib edilib

SWOT təhlilindən əldə etdiyimiz güclü, zəif, imkan və təhlükələri araşdırararaq mərkəzlərin fəaliyyətini təkmilləşdirmək üçün müxtəlif strategiyalar müəyyən etmək olar. Təhlildən əldə etdiyimiz nəticədən isə mərkəzin imkanlarını güclü tərəflərə çevirmək lazımdır. Həmçinin zəif və təhlükləri isə karyera mərkəzlərinin fürsətinə çevirmək lazımdır.

Cədvəl 3



Mənbə: Müəllif tərəfindən tərtib edilib

Nəticə

Araşdırmalar göstərir ki, ali təhsil müəssisələrinin məzunlarının əmək bazarına uğurlu inteqrasiyası yalnız ixtisas biliklərinin verilməsi ilə məhdudlaşmamalı, həm də onların karyera inkişafı prosesində fəal dəstəklə müşayiət olunmalıdır. Bu baxımdan universitetlərdə yaradılmış karyera mərkəzləri məzunların peşəkar həyata keçidində mühüm vasitəçi funksiyasını yerinə yetirir. Onların fəaliyyəti təkcə fərdi konsultasiyalarla məhdudlaşmır, eyni zamanda əmək bazarının tələblərinin təhlili, təlimlərin təşkili, iş yarmarkalarının keçirilməsi və əməkdaşlıq şəbəkələrinin genişləndirilməsi ilə də xarakterizə olunur.

Karyera mərkəzləri vasitəsilə tələbələr əmək bazarı haqqında praktiki biliklər əldə edir, real iş mühitinə uyğunlaşma bacarıqlarını inkişaf etdirir və işəgötürənlərin gözləntilərinə cavab verməyə başlayırlar. Bu isə onların iş tapmaq ehtimalını artırmaqla yanaşı, karyeralarında uzunmüddətli uğurların əsasını qoyur. Eyni zamanda, universitetlərlə işəgötürənlər arasında daha sıx əlaqələrin qurulması nəticəsində təhsil proqramlarının məzmunu bazar tələblərinə uyğunlaşdırılır, bu da təhsilin keyfiyyətinin yüksəlməsinə və onun praktik yönümünün güclənməsinə səbəb olur.

Məqalədə aparılan təhlillər göstərir ki, karyera mərkəzlərinin səmərəli fəaliyyəti üçün aşağıdakı istiqamətlər üzrə inkişaf strategiyalarının formalaşdırılması vacibdir:

1. Əmək bazarı haqqında analitik məlumat bazasının yaradılması və daim yenilənməsi;
2. İşəgötürənlərlə institusional əməkdaşlıq mexanizmlərinin qurulması;
3. Tələbələrin və məzunların fərdi xüsusiyyətlərini və maraqlarını nəzərə alan fərdiləşdirilmiş karyera dəstəyi xidmətlərinin inkişafı;
4. Mərkəz əməkdaşlarının peşəkar hazırlığının artırılması və fəaliyyətlərinin müasir texnologiyalarla təmin olunması.

Nəticə olaraq qeyd etmək olar ki, karyera mərkəzləri ali təhsilin əmək bazarı ilə inteq-rasiyasını təmin edən əsas mexanizmlərdən biri kimi çıxış edir. Onların fəaliyyəti yalnız tələbə və məzunlara deyil, həm də təhsil sisteminə və cəmiyyətin sosial-iqtisadi inkişafına mühüm töhfələr verir. Buna görə də karyera mərkəzlərinin fəaliyyətinin gücləndirilməsi, dövlət siyasətində və ali təhsil strategiyalarında xüsusi yer almalıdır.

Ədəbiyyat

1. Dövlət məşğulluq Agentliyi. Karyera məsləhətçiləri üçün metodik vəsait" Bakı-2023. - 181 s.
2. Ələkbər T.- Karyera A-dan Z-yə: Bakı-2015. - 264 s.
3. Karyera ensiklopediyası Bakı-2008. - 162 s.
4. Rzayev R. - Ali təhsilli məzunların əmək bazarının tələb və təklifin tənzimlənməsinə karyera mərkəzlərinin təsiri: / İqtisadiyyat üzrə fəlsəfə doktoru dis./ Bakı-2016. - 148 s.
5. https://library.iated.org/view/BALYKHIN2018EMP
6. https://career.uoregon.edu/resources/linkedin-learning
7. https://www.hu-berlin.de/de/hu/verwaltung/ccww
8. https://bbu.edu.az/uploads/files/Esasnameler/Karyera%20v%C9%99%20M%C9%99zunlarla%20I%CC%87s%CC%A7%20M%C9%99rk%C9%99zi%20%C6%8Fsasnam%C9%99.pdf
9. https://www.insidehighered.com/sites/default/files/2023-05/Benchmarking%20Best-in-Class%20Career%20Services%20%281%29.pdf

Məqalənin redaksiyaya daxilolma tarixi: 18.06.2025
Məqalənin təkrar işlənməyə göndərilmə tarixi: 24.06.2025
Məqalənin çapa qəbul olunma tarixi: 05.07. 2025